*Qalıram bir çeşmə gözü olmağa,*
*Sən Allah, bu dəfə, məni aparma.*

Bu cür şeirlərdə "torpağın çiçəkli üzü", "bir çeşmə gözü", "arxda qızılağaca budaq", "su ömrünə ortaq", "lalələr içində alışıb qalmaq", "gül olub zəmiyə qarışmaq" təkcə saflaşmaq, öz ilkinə qovuşmaq mənasında deyil, eyni zamanda təbiətdəki harmoniyanı cəmiyyətin daxili təzadlığına qarşı qoymaq meyli kimi səciyyələnir.

Musa Yaqubun qəhrəmanı üçün təbiət insanı əksetdirmə vasitəsidir. Təbiəti dərindən duyum, ilk növbədə bu iki varlığı vəhdətdə dərk prinsipi onun yaradıcılığında həm təbiətə müraciətin, həm də peyzajın fonunda insanı açmaq və dəyərləndirmənin yeni üsulu kimi nəzərə çarpır.

*O sonuncu yarpaq -*
*Mənəm yellənən,*
*Hələ o budaqdaləngiyir ömrüm,*
*Boğazı tıxanıb ağzı lillənən*
*Bir payız arxıdır - təngiyir ömrüm.*

Şair göstərir ki, "İnsanı təbiətə şamil edə biləcək bütün obrazlar bəlkə də eynidir. Bu obrazları poetikləşdirib birindən digərinə köçürəndə təbiət insanlaşır, insan təbiətləşir və bu qarşılıqlı ünsiyyətdən vahid bir şeir yaranır". Musa Yaqubun yaradıcılığında insan-təbiət həmişə vəhdətdə verilir. Təbiət təkcə fon kimi deyil, təhkiyənin aktiv komponenti kimi çıxış edir. Peyzaj varlığı əksetdirmə üsulu kimi onun şeirlərinə bir özünəməxsusluq, təbii çalar və fəlsəfi axar verir.

*Ovcuma da baxdim,bir xəzələ də,*
*Damarlar, cizgilər nə qədər oxşar.*
*Bizdən ayrı deyil bircə gilə də,*
*Ovcumun içində bir payız yaşar.*

Şair təbiətin rəngləri ilə ömrün etapları arasında, təbiət qanunları ilə cəmiyyət qanunları arasında təbii əlaqə qurur. M.Yaqub yaradıcılığında üslubi cəhətdən diqqəti cəlb edən xüsusiyyətlərdən biri şairin mövzusundan asılı olmayaraq, hər cür məqamda təbiətə müraciətidir. Şairin intim hiss və yaşantılarının ifadəsində, cəmiyyətin hal və vəziyyətinin təsvirində də, ictimai mətləblərin açılmasında da tamamlayıcı obyekt, bədii vasitə təbiətdir. Müqayisə, bənzətmə, psixoloji paralelizm, assosiasiya əsasən təbiətlə bağlı şəkildə qurulur.

Təbiət onun təfəkkür tərzidir. Əgər biz ondan təbiəti ayırsaq, onda şairin həyatı estetik qavrayışı, şeirlərinin bədii siqləti, poetik çalarları sönük, heç bir məna kəsb etməyən nəsnəyə çevriləcək. Təbiətə əsaslanan leksika zənginliyi, dil materialının peyzaj materialına əsasən tərtib edilməsi şairin yaradıcılığına fərqli ifadə, təsvir zənginliyi gətirir, deyim tərzini formalaşdırır və özünəməxsus leksika yaradır. Kənd təbiəti və məişətinin obrazlaşdırılması, mətndə poetik funksiya daşıyıcısına çevrilməsi bu dilin əsas vasitəsinə çevrilir, təsvir və ifadə məqamlarında həm kənd təbiəti, həm də kənd məişəti elementləri bir-birini tamamlayır. Bu cür xüsusiyyətə şairin "Lalə", "Dağlar nə qəribə olur gecələr", "O yerdə", "Payızın göy xalçası" və s. nümunələrdə rast gəlmək mümkündür.

*Gör nələr var təbiətin ixtiyarında*
*Gəndalaşın meyvələri göyə sovrulur!*
*Qarıqallar su gizlətsə də kasalarında,*
*Axır gəlib çətənəsi sacda qovrulur.*

Musa Yaqub üslubuna xas digər bir xüsusiyyət dilə zorla nəyi isə pərçim etmək deyil, onun şirinliyini, cazibəsini olduğu kimi, təbii, mövcud danışıq elementləri ilə əsaslandırmaqdır. Təbiəti sərrast müşahidə və bunu varlığın müxtəlif tərəflərinə istiqamətləndirmək bacarığı Musa Yaqub şeirinin ahənginə, intonasiyasına da təsirsiz ötüşmür. Təzadlılıq, eyni sözün mətn daxilində müxtəlif çalarlarda təqdimi, semantik təzadlılıq diqqəti cəlb edir.

*Əlimin abırı, tumarı gedir.*
*Ovcum böyüdükcə borcum böyüyür.*
*Yolumun rahatı, hamarı gedir.*
*Yetim cığırlarda otum böyüyür.*

Böyüklük sözünün semantikasında ucalmaq, yüksəlmək, insana xas ən yüksək ali məqam dayanır. Lakin şairin baxışında sözdəki semantik təzadlılıq üslubi səciyyə daşıyır. "Böyüyür məzarım məzarıstanım", "Hirsim böyüdükcə həbsim böyüyür", "zindanım böyüyür, şeytanım böyüyür, qoruyun məni" və s. Təzad və əksliklərin fikri, ideya - məzmunu dolğun ifadə edən bu poeziyada təzadlıq çox zaman birbirinə zidd sözlərin deyil, əksərən sözün həqiqi mənasının, semantik mənasının funksional təzadlığını yaradır.

*Doğmadı günəşi bu məmləkətin,*
*Biz başqa ümidlə çıxmışdıq yola,*
*İşıq kölgəsində yaşamaq çətin,*
*İşıq ola -ola, gün ola-ola.*

Musa Yaqubun son illər yaradıcılığı üçün ən xarakterik xüsusiyyət söz oyunları, təkrarlanan eyni sözün təzadlı, bir-birinə zidd mövqedən işlənməsi, eyni sözün müxtəlif variantlarda təqdimi, cinaslar şairin poeziyasında gözəl poetik effekt, maraqlı ahəng yaradır, fikrin məna yozumunu üzə çıxardır. Qarabağ yanğısı, itirilmiş torpaqların ağrısı, el-oba, torpaq nisgili, yurd-yuvasından didərgin düşən həmvətənlərimizin yaşadıqları hər vətəndaşın qəlbində bir iz buraxıb. Bu itkiyə, bu ağrıya Musa Yaqub baxışı tam fərqli və orijinaldır.

*Doğranıb ağacım, çapılıb qayam,*
*Daşaltıda deyil, daş altındayam,*
*İsa bulağı da qara yaşımdır,*
*Havaya sovrulan haqq savaşımdır,*
*Mən elə özüm də bir qəbiristanam,*
*O qara mərmərlər sinə daşımdır.*

Musa Yaqub şeirində obraz birbaşa yaradılmır, obrazın yaranmasını şərtləndirən amil, hadisə, mənzərə yaradılır və onun nəticəsi olaraq obraz ümumiləşir. Təbiətdən cəmiyyətə bağlanışı şərtləndirən Musa Yaqub şeirində get-gedə bədii suallar, daxili monoloq, sual-cavablar, epik vüsət, publisistik ton yüksəlir, yeni intonasiya çalarları yaranır. Şairin "İnsanlara məktub", "Nəyi bizimdir", "Bizimkilər...bizimkilər...", "İlahi, mən hara gəlib çıxmışam", "Hara gedir", "Bir də görəcəyik" və s. şeirləri bu qəbildəndir. Bu bir tərəfdən yaş ovqatı ilə əlaqədardısa, digər tərəfdən "şoru bazarında balından baha" dünyada nizamın pozulması, dəyərlərin itməsi ilə səciyyələnir.

Musa Yaqub poeziyasında insan, cəmiyyət, ictimai münasibətlər, insanlararası əlaqələr, cəmiyyətdəki aşınmalar təbiət obyektində şərh olunur.

*Tozlanıb getdilər qoz ağacları,*
*Qırılıb getdilər qoz ağacları...*
*A sinəsi mərmər, kəməri gümüş,*
*Yox, qaça bilməzsən, alaca göyrüş...*
*Biri ağac kəsən, biri baş kəsən -*
*Biz zülm, sən ölüm növbəsindəsən.*

Bir vaxt "yaşıdlarım, yaşıllarım" adlandırdığı ağacların görüşünə gedən, öz ömür yoluna nəzər salan, uşaqlıqda şələsi ilişən, illəri bada verən, qırılan, məhv olan, cavanlaşan ağacların fonunda ömrünü varaq-varaq oxuyurdusa, sonrakı qayıdışda meşədəki müdhiş görüntü, qolları qırılmış, lüt-üryan qalmış təbiətə qarşı zorakı münasibət ictimailəşir, təbiətdən cəmiyyətə intixaba çevrilir.

Bədii yaradıcılığa "İki qəlb, iki dünya" poeması ilə başlayan Musa Yaqubun yaradıcılığında poemalar da xüsusi yer tutur. Şair ayrı-ayrı illərdə qələmə aldığı lirik ("Hər məktubdan bir sətir", "İndi desəm nağıldır", "Ad", "Neft daşlarında gecəyarı", "Dəyirman", "Dünyanın Lələ dərdi"), lirik-epik ("İki qəlb, iki dünya", "Bu məhəbbət yaşadar məni", "Un işığı"), alleqorik ("Qırqovulam, təkəm mən", "Quşların qış söhbəti"), əfsanəvi ("Babadağın ağ dumanı", "Min ilin bir gecəsi") poemalarında doğma təbiət, həssas və xeyirxah, vətənpərvər, zəhmətkeş insanlar haqqında düşüncələrini ifadə edir. Təbiətə məhəbbət bu poemalarda torpağa, zəhmətə, insana, onun qüvvə və bacarığına, təmiz və ali hisslərinə inamla yoğrulur, vətənpərvərlik duyğuları ilə çulğalaşır. Qoynu od püskürən Xəzərin dalğaları üzərində şəhər salan fədakar insanlar ("Neft daşlarında gecəyarı"), müqəddəs vətən torpağı uğrunda şəhid olmağı fəxr sayanlar ("Hər məktubdan bir sətir"), çətin gündə el-obasına hayan duranlar, ağır müharibə illərində nəcib əxlaqi keyfiyyətlərini itirməyən sadə insanlar ("Un işığı"), vətən dərdi, təəssübkeşliyi, cəmiyyətdə baş verən əxlaqi-mənəvi aşınmalar ("Dünyanın Lələ dərdi"), bir sözlə, müasir ictimai mühitin bir sıra problemləri mövzu baxımından zəngin və rəngarəng olan bu poemaların ideya-məzmununun əsasında dayanır.

Musa Yaqub poemalarında xalq bədii təfəkkürünün məhsulu olan bayatı, holavar, əsatir, əfsanə, nağıl və s. folklor nümunələrindən bədii vasitə kimi istifadə etməklə xalq ədəbiyyatı xəzinəsindən özünəməxsus şəkildə bəhrələnmişdir. Məzmun dolğunluğu, müasirlik ruhu ilə bu poemalar sadə insanların həyatı, qayğıları, mənəvi aləminin aynasına çevrilir, səmimi ifadə tərzi, kövrək intonasiya çalarları yaddaşımızla mənəviyyatımız, bu günümüzlə dünənimiz arasında körpü yaradır.

Səmimi, kövrək, aydın, eyni zamanda orijinal ifadə tərzi ilə seçilən dərin fəlsəfi ruhlu Musa Yaqub poeziyası milli kolorit və özünəməxsusluqla süslənən, təbiətdən və xalq mənəviyyatından qaynaqlanan bənzərsiz poetik üslubu, milli ənənələrə yaxından bağlılığı və yaradıcı münasibəti sayəsində fərqli ahəng, ritm və intonasiyası, zəngin və təkrarsız obrazlar sistemi ilə səciyyələnən bir poeziyadır.

**Ədəbiyyat qəzeti.- 2017.- 13 may.- S. 21.**